**Məhbubə Tehrani**

# KƏRİM XAN ZƏND

Tərcüməçi:
Əkrəm Bağırov

QANUN NƏŞRİYYATI

Kitab Nadir şah Əfşarın qətlindən Qacarlar dövrünə qədər uzun bir tarixi mərhələnin təsvir və təhlilinə həsr edilib. Əslən lor tayfasından olan Kərim xanın hakimiyyət dövrü İranda dinclik və əmin-amanlıq dövrü kimi xarakterizə edilir. Kərim xanın özünü şah deyil, vəkil əd-dövlə (xalqın və dövlətin vəkili) elan etməsi Səfəvi xanədanına müsbət münasibəti kimi qələmə verilir. Elmi-populyar dildə yazılmış əsərin doğma dilimizdə nəşri İran və Azərbaycan tarixini araşdıran mütəxəssislər və ümumiyyətlə tarixsevərlər üçün nəzərdə tutulub.

Azərbaycan Milli Elmlər Akademiyasının
Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun
Elmi Şurasının 2 fevral 2022-ci il tarixli 2 N-li iclasının
qərarı ilə nəşr edilir.

**Məhbubə Tehrani. KƏRİM XAN ZƏND**
Bakı: Qanun nəşriyyatı, 2023, 240 səh.

Ölçü: 135x210 mm
Cild: yumşaq
Çapa imzalandı: 09.01.2023

| | |
|---|---|
| Fars dilindən tərcümə edən: | **Əkrəm Bağırov,** *filologiya üzrə fəlsəfə doktoru, dosent* |
| Elmi redaktor: | **Nigar Gözəlova**, *tarix üzrə elmlər doktoru* |
| Redaktorlar: | **İbrahim Quliyev**, *filologiya üzrə fəlsəfə doktoru* **İlhamə Məmmədzadə** |
| Texniki redaktor: | Asifə Əfəndiyeva |
| Mətn dizaynı: | Lalə Hüseyn |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-284-6

© Qanun Nəşriyyatı, 2023
© Əkrəm Bağırov, 2023
© AMEA M.Füzuli adına Əlyazmalar institutu, 2022

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım
hüquqları Qanun Nəşriyyatına məxsusdur. Kitabın təkrar və
hissə-hissə nəşri «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında»
Azərbaycan Respublikasının Qanununa ziddir.

## ELMİ REDAKTORDAN

İran və Cənubi Qafqaz  xalqlarının tarixində XVIII əsr kimi mürəkkəb və hadisələrlə zəngin bir dövrə rast gəlmək çətindir. Bu dövr təkcə bir zamanlar bütün Yaxın və Orta Şərqin ən qüdrətli imperiyası olan Səfəvilər dövlətinin tam süqutu ilə diqqəti cəlb etmir, eyni zamanda Səfəvi imperiyasının sərhədləri daxilində öz dövlətlərini yaratmağa can atan istedadlı sərkərdələrin siyasi səhnəyə çıxması ilə yadda qalmışdır.

Böyük Səfəvi xanədanının süqutu, əfqanların hücumu və onlar tərəfindən ali hakimiyyətin zəbt edilməsi, Rusiya və Osmanlı imperiyaları tərəfindən Səfəvi torpaqlarının bir hissəsinin işğalı və Nadir şah Əfşarın möhtəşəm imperiyasının yaranması, onun apardığı müharibələr, böyük türk fatehinin qətlindən sonra (1747) hakimiyyət uğrunda gedən amansız mübarizə bölgədə siyasi cəhətdən qeyri-sabit bir mühit yaratmışdır.

Nadir şahın ölümündən dərhal sonra İranda hakimiyyət uğrunda mübarizə başlayır. Nadirin qardaşı oğlu Əliqulu xan (İbrahim xanın oğlu) 1747-ci ilin iyun ayında Adil şah adı ilə taxta əyləşir. Nadir şahın bütün oğulları və nəvələrini Kelatda qətlə yetirən Əliqulu xan onun yalnız on üç yaşlı nəvəsi Şahruxu sağ saxlayaraq Məşhəddə zindana salır. Şahrux Nadirin böyük oğlu Rzaqulu xanın oğlu idi, onun anası isə şah Sultan Hüseynin (1694-1722) qızı Fatimə Sultan Bəyim idi. Əliqulu xanın onu sağ saxlamasının səbəbi xalqın onun hakimiyyətinin qanuniliyini qəbul etməməsi ehtimalından yaranan qorxu idi və bununla da öz hakimiyyətinə

legitimlik vermək üçün bu Əfşar-Səfəvi törəməsindən istifadə etmək niyyətində idi.

Bununla yanaşı Adil şah Qacarları öz tərəfinə çəkmək üçün Qoyunlu qolundan olan Məhəmmədhəsən xan Qacarı Məşhəddəki sarayında *eşikağasıbaşı* təyin etdi. Lakin Məhəmmədhəsən xan Qacarın çox tezliklə Adil şahla arası dəyir və Məşhədi tərk edir. O, Astrabadda hakimiyyəti əlində saxlaya bilməyərək qaçır və dost türkmən tayfalarına pənah aparır. Lakin onun kiçik yaşlı oğlanları - Ağa Məhəmməd və Hüseynqulu Adil şahın əlinə düşür və onun əmri ilə böyük oğlu, beş yaşlı Ağa Məhəmməd axtalanır. Bununla belə, yeni hökmdar çox tezliklə öz tərəfdarlarının bir çoxunun ümidlərini doğrultmadı, hətta İsfahana hakim təyin edilmiş doğma qardaşı İbrahim Mirzə belə ona qarşı çıxdı. İbrahim Mirzə qardaşının qoşununu darmadağın etdi, Adil şahın özünün isə gözlərini kor etdi. Lakin bir neçə aydan sonra (1749) artıq o özü Şahruxun birləşmiş qoşunları tərəfindən darmadağın edildi və 1748-ci ilin oktyabr ayının əvvəlində Məşhəddə Şahrux taxta əyləşir. Adil şah tutularaq Məşhədə gətirildi və orada edam edildi. Lakin artıq 1750-ci ildə Şahrux taxtdan salınır, həbs olunur və gözlərindən məhrum edilir. Taxta müvəqqəti olaraq Səfəvi sülaləsinin qadın xətti ilə olan nəslindən biri - Seyid Məhəmməd çıxır. O, özünü II Süleyman adı ilə şah elan edir. II Süleyman, Məhəmmədhəsən xan Qacarı Astrabadın sərdarı təyin edir və bunun da nəticəsində Məhəmmədhəsən xan Qacar Astrabad və Mazandaranda mövqeyini möhkəmləndirir. Lakin bir müddət sonra Şahrux yenidən taxta qaytarılır və 1796-cı ilə qədər Xorasanda müxtəlif ittifaqlarla hakimiyyəti öz əlində saxlayır. Qeyd etmək lazımdır ki, Kərim xan Zənd də Əhməd şah Dürrani kimi Nadir şahın sərkərdələrindən idi və onlar hər vasitə ilə Şahruxun Xorasandakı hakimiyyətini dəstəkləyirdilər. Onlar ümid edirdilər ki, onun Xorasandakı hakimiyyətini saxlamaqla öz dövlətləri ara-

sında bufer zonası yaratmış olurlar. Beləliklə, nə qədər inanılmaz səslənsə də, Nadir şahın yaxın qohumları onun nəslini bütünlüklə məhv etdilər və bunun əksinə olaraq onun sərkərdələri Şahruxa dəstək verməklə öz başçılarının xatirəsinə daha çox sadiq qaldılar.

Eyni vaxtda mərkəzi və cənub-qərbi İranda və cənubi Azərbaycanda Zəndlərlə Bəxtiyarilər və Məhəmmədhəsən xan Qacar arasında hakimiyyət uğrunda mübarizə gedirdi. Kərim xan Zənd son vaxtlara qədər öz müttəfiqi olan Əlimərdan xan Bəxtiyarinin qoşununu məğlub edərək 40 minlik süvari ordusu ilə Qacara tərəf yürüş etdi. Məhəmmədhəsən xan türkmənlərin dəstəyi ilə Zənd qoşununu darmadağın etdi. Kərim xan kiçik bir dəstə ilə Tehrana, oradan İsfahana və sonra Şiraza qaçır və burada mərkəzi İranı tutmuş Azad xan Əfqanla mübarizə üçün yeni ordu toplamağa başlayır. Azad xanla Kərim xan Zənd arasında mübarizə getdiyi müddətdə Məhəmmədhəsən xan şimalda öz mövqelərini möhkəmləndirərək Gilanı özünə tabe edir və cənubi Azərbaycanın bəzi xanları ilə razılığa gəlir. 1755-ci ildə Məhəmmədhəsən xan 50 minlik qoşunla mərkəzi İrana yürüşə çıxır. Məhəmmədhəsən xan Kərim xan Zəndin başçılığı altında olan qoşunu məğlub edərək, 1756-ci ilin yazında İsfahanı tutur. Gilanın Azad xan Əfqan və Fətəli xan Əfşarın birləşmiş qüvvələri tərəfindən tutulması Məhəmmədhəsən xanı təcili surətdə öz torpaqlarına qayıtmağa və onların ittifaqını darmadağın etməyə məcbur etdi. Qacarlar hakimiyyətini bir çox cənubi Azərbaycan xanları tanıdı. Lakin artıq 1758-ci ilin yazında tale Məhəmmədhəsən xandan üz döndərir. Şiraz yaxınlığında Kərim xan Zəndin qoşunu ilə olan döyüşdə məğlub olan Məhəmmədhəsən xan Mazandarana (1758-ci ilin iyulunda) geri çəkilməyə məcbur olur. Lakin Qacarın bu mərhələdə hakimiyyət uğrunda mübarizəsinin məğlubiyyətini onun tərəfdarlarının, daha dəqiq, Qacarların Dəvəli qolundan olan Məhəmmədhüseyn xanın satqınlığı artıq əvvəlcədən labüd etmişdir. Qacar ordusu

onu təqib edən Şeyx Əli xan Zəndlə olan döyüşdə məğlub olur. Məhəmmədhəsən xan əsir düşür və 1759-cu ilin fevralında Qacar xanlarından biri tərəfindən onun başı vurulur.

Bununla belə, Kərim xan Zənd İran ərazisinin böyük bir hissəsində öz hakimiyyətini təsdiq etsə də, XVIII əsrin birinci yarısında baş vermiş siyasi böhrandan sonra şahlıq hakimiyyətinin səbatsızlığını başa düşürdü və bu səbəbdən şahlıq taxt-tacına iddia etmir, real hakimiyyəti şahlıq taxt-tacından üstün tuturdu. Vəkil əd-Dövlə və ya Vəkil ər-rüəya kimi rəsmi titullara malik olmaqla o, İran və cənubi Azərbaycan torpaqlarını iyirmi ilə yaxın bir müddətdə idarə edir. Maraqlıdır ki, bu zaman İranda iki şah var idi – 1773-cü ilə qədər İsfahanda yaşayan III Şah İsmayıl Səfəvi və iqamətqahı Məşhəddə olan, hakimiyyəti isə bəzən tam nominal şəkildə Xorasanı əhatə edən Şahrux – Nadir şah Əfşarın nəvəsi.

Qeyd etdiyimiz kimi, Məhəmmədhəsən xanın varislərinin zəifliyindən istifadə edən Qacarlar tayfasının Dəvəli qolunun xanları tayfa başına kecdilər və Kərim xan Zəndin ali hakimiyyətini tanıdılar. Məhəmmədhəsən xan Qacarın bütün var-dövləti Kərim xanın əlinə keçdi. Məhəmmədhüseyn xan Dəvəli Astrabad vilayətinin hakimi təyin edildi. Məhəmmədhəsən xanın böyük oğlu Ağa Məhəmməd xan tutularaq Şiraza göndərildi. Bir qədər sonra onun doğma qardaşı Hüseynqulu xan da onun yanına göndərildi. Bu zaman onların doğma bibisi, Kərim xan hərəmxanasında olan arvadlarından biri – Xədicə bəyim onlara çox böyük dayaq oldu. Məhəmmədhəsən xanın başqa iki oğluna – Murtuzaqulu xana və Mustafaqulu xana Astrabadda qalmağa icazə verildi. Belə ki, onların anası Məhəmmədhüseyn xan Dəvəlinin bacısı idi. Yerdə qalan başqa oğulları Qəzvinə göndərildi. Kərim xanın məğlub olmuş rəqibinin ailəsinə qarşı göstərdiyi münasibət o dövr üçün çox da xarakterik olmayan humanist bir rəftar idi.

Kərim xan Zəndin ölümündən (1779) sonra daxili müharibələr dalğası bütün İranı bürüdü. Zənd nəslinin nümayəndələri hakimiyyəti öz əllərində saxlamağa çalışdılar. Lakin müxtəlif tayfa qruplaşmalarının çox güclü müxalifəti ilə üzləşdilər. Onların ən güclü və nüfuzluları Qacarlar idi. Əslində Zəndlərin özləri bir-birini məhv edərək Qacarın şah taxtına gedən yolunu təmizlədilər. Zəndlilərin öz aralarında olan düşmənçiliyi Kərim xanın varislərini zəiflətdi və bununla da Ağa Məhəmməd xan Qacarın hakimiyyət uğrunda uğurlu mübarizəsinə kömək etmiş oldu. 1791-ci ilin yazında Ağa Məhəmməd xan Şirazı tutdu. Şəhər dağıdıldı, Kərim xanın qohumları və Zənd tayfasının bir neçə min sıravi nümayəndəsi Qacarların nəzarəti altına, Tehran ətrafına köçürüldü.

Beləliklə, Zəndlərin qısa müddətli hökmranlığından sonra İranda hakimiyyətə yenidən Azərbaycan-Türk sülaləsi gəldi. Ağa Məhəmməd xan Qacarın hakimiyyəti dövründə Azərbaycan tayfalarının siyasi gücü və fəallığı Səfəvi dövlətinin sərhədlərinin bərpası üçün istifadə edildi.

Tarix elminin inkişafının müasir mərhələsində unudulmuş tarixi şəxsiyyətlərin həyat və xidmətlərinin tədqiqi problemi böyük önəm kəsb edir. Hər bir dövr keçmişdən özlərinə münasib adları çəkib çıxarır və müasirlərin maraqlarını onlarda cəmləşdirir. Bu tarixi dövrün dünya tarixşünaslığında kifayət qədər tədqiq olunmasına baxmayaraq, regionun tarixi fəlsəfəsinə və xüsusiyyətlərinə dair bir sıra məsələlər mövcuddur ki, onlar hələ də tədqiqatçıların diqqətini özünə cəlb edir. Bizim fikrimizcə bu məsələlərə Səfəvi sülaləsinin süqutundan sonra taxt-taca iddia edənlərin meydana çıxması problemi də aiddir. Heç şübhəsiz, Səfəvilər irsi bütün yüzillik boyu elə gücə malik idi ki, sonrakı dövrdə siyasi səhnəyə çıxmış bütün liderlərə təsir etmişdir. Onların hamısı özlərini fikrən Səfəvilərə bağlayır, Səfəvi dövlətinin sərhədlərini bərpa etməyə çalışır, onlarla qohumluq əlaqəsi yaradır (Nadir şah Əfşar) və ya

Səfəvi sülaləsinin varisləri adından çıxış edir (Kərim xan Zənd), ya da Qızılbaşlara aid olduqları üçün özlərini bu sülalənin qanuni varisləri elan edirdilər (Ağa Məhəmməd şah Qacar). Lakin o dövrün qeyri-adiliyi bundan ibarətdir ki, böyük Əfşar imperiyasını yaradan Nadir Şah və hakimiyyəti zamanı regionda nisbi sabitlik və iqtisadi inkişaf dövrü yaratmış Kərim xan Zənd, Qacarlar sülaləsindən fərqli olaraq sülalə dövlətini yarada bilmədilər. Bu maraqlı məsələ tarix elmində hələ də öz araşdırılmasını gözləyir. Lakin onları birləşdirən bəzi xüsusiyyətlər də var. Əvvəla, irsən xan tituluna malik olan Ağa Məhəmməd xan Qacardan fərqli olaraq Kərim xan Zənd və Nadir şah Əfşar tayfa başçıları olmamışlar. Bundan başqa, Zənd tayfası bir neçə yüz ailədən ibarət idi, Kərim xanın ardıcılları isə zənd, lək, lur, kürd və türk tayfalarının ittifaqından ibarət idi. Bu iki lider uğurlarını əsil-nəcabətlilikləri və ali titulları ilə deyil, öz liderlik və sərkərdəlik bacarıqları ilə təmin etdilər.

Maraqlı haldır ki, Zəndlər haqqında olan xronikanın əksəriyyəti ya Qacarlar dövründə yazılmış, ya da tamamlanmışdır (Mirzə Məhəmməd Sadiq Musəvi Nami, Mirzə Əbülhəsən Qəffari Kaşani, Əlirza Əldülkərim Şırazı, Məhəmməd İsmayıl xan). Buna baxmayaraq, o kitablarda Zənd hakimlərinin əksəriyyətinin nəcabəti və ədalətindən danışılır. Məşhur şair Mirzə Abdulla xan Şəhab Şirazinin Zəndlərə həsr olunmuş poeması da Qacarlar dövründə (1800-1801-ci illərdə) yazılmışdır.

Məhbubə Tehraninin təqdim etdiyi tədqiqat işi İran aliminin Kərim xan Zəndin hakimiyyət dövrünə müasir baxışını özündə əks etdirir. İranın Şəhid Behisti Universitetinin tədqiqatçı-müəllimi Məhbubə Tehrani tərəfindən yazılmış bu əsər ilk dəfə İranda 2007-ci ildə çap olunmuşdur. Bir-birinin ardınca dörd dəfə nəşr olunmuş bu kitabın Azərbaycan oxucusu üçün mühüm əhəmiyyəti müəllifin fars dilində olan çoxsaylı tarixi mənbələrdən geniş istifadə etməsidir. Bu mənbələrin bir çoxu Azərbaycan tarixçiləri